Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika
Uşaq Kitabxanası**

# *Məxmər pərdələr arxasında yaşanan həyat*

Milli Teatr Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı -2017**

**Tərtibçi:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Səməd Məlikzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**"Məxmər pərdələr arxasında yaşanan həyat"** metodik vəsait / tərt.ed. A.Əliyeva; red. S.Məlikzadə; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.-31 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

İnsanın həmişə tamaşaya ehtiyacı olub. Bir vaxtlar məkr və məhəbbət, əyləncə dolu mərasimlər, məhkəmə və edam səhnələri, qladiator döyüşləri, hətta müharibələr də böyük bir tamaşa idi. Ancaq günlərin birində humanist düçüncəli biri bu gerçək tamaşalardan cana doyub onları səhnəyə köçürdü. Bu səhnədə sevmək də, mübarizə də, döyüş də, ölmək də vardı. Sadəcə pərdələr enəndən sonra ölənlər dirilir, tamaşa qansız və qadasız ötüşürdü. Tamaşaçılar uzun müddət bu sehri “açа” bilməsələr də, teatra inanırdılar...

Teatrın vətəni qədim Yunanıstandır. “Teatr” sözü də yunan dilində “tamaşa yeri” mənasını verir. Teatrı çox sevən yunanlar bu məkanı həm də “böyüklər üçün məktəb” adlandırırdılar. Qədim yunan əfsanələri teatra zəngin mövzu verdikcə ilk traqediyalar adlanan pyeslər yaranırdı. Bu əsərlərdə qəhrəmanlar arasında gedən mübarizə, onların iztirabları, faciəsi təsvir edilirdi. Gülməli səhnəciklərdən isə şən və məzəli pyeslər-komediyalar yarandı. Yenə də yunan sözü olan “komediya” “şən sakinlərin mahnısı” deməkdir. Yunanlar tamaşa günündə yemək-içmək götürüb teatra toplaşardılar. Tamaşa qurtardıqda xüsusi komissiya seyrcilərin rəyini nəzərə alaraq qələbəni ən yaxşı pyes müəllifinə və ən yaxşı aktyorlara verərdi. Onlar çələng və qiymətli hədiyyələrlə mükafatlandırılardılar. Teatr sənəti sonralar qədim Romada, Şərq ölkələrində - Çində, Hindistanda, Yaponiyada formalaşıb və geniş yayılıb.

1948-ci ildə dünya teatr içtimaiyyəti YUNESKO-nun himayəsi altında Beynəlxalq Teatr İnstitununu yaradıb. Dünya teatr xadimləri və müxtəlif teatr təşkilatlarının rəhbərləri 1961-

ci il martın 27-də ilk dəfə Vyanada toplanıb. Konqres iştirakçıları belə qərara gəliblər ki, həmin tarix Beynəlxalq Teatr Günü kimi qeyd olunsun. Onu da deyək ki, həm Beynəlxalq Teatr Günü, həm də Azərbaycan Miili Teatr Günü mart ayının payına düşür. *Milli Teatr Günü münasibətilə kitabxanada kitab sərgisi keçirilə bilər*.

Sərgidə teatrlarımız haqqında yazılmış kitablar, dövri mətbuatda dərc olunmuş yazı nümunələri, görkəmli şəxsiyyətlərin teatr haqqında söylədikləri yer almalıdır. Burada ayrı-ayrı teatrların rəsmləri və tamaşalar zamanı çəkilmiş fotolar yerləşdirilir. Sərgiyə müxtəlif başlıqlar verilir: "Ümumxalq məktəbi - Teatr", "Teatrımız dünən, bu gün, sabah", "Teatr məktəbdir", "Məbədləşən məktəblər", "İncə sənət - teatr", "Məxmər pərdələr arxasında yaşanan həyat", "Tamaşa sənətimiz - teatr", "Çox sevdiyimiz məkanlar - teatrlar", "Səhnəyə qovuşan cığırlar", "Səhnəmizin fədailəri". Bundan əlavə, sərgidə görkəmli insanların Milli Teatr haqqında söylədikləri sitatlar şəklində verilir.


AZƏRBAYCAN DÖVLƏT
RUS DRAM TEATRI
İkinci kitab


MÜASİR DÜNYA
dramaturgiyasından
seçmələr


ETİBAR BABAYEV
TEATRDA
MÜASİRLİK AXTARIŞLARI


AZƏRBAYCAN TEATRI
İLHAM RƏHİMLİ
ÜÇ ƏSRİN
YÜZ OTUZ İLİ


İLHAM RƏHİMLİ
Səhnəyə
qovuşan
cığırlar


MƏRYƏM ƏLİZADƏ
ELÇİNİN


İLHAM RƏHİMLİ
Teatr naxışları


AZƏRBAYCAN TEATRI
İLHAM RƏHİMLİ
SƏHNƏMİZİN
FƏDAİLƏRİ

**Görkəmli şəxsiyyətlərin Milli Teatr haqqında söylədikləri**

Azərbaycan milli teatrının tarixi, böyük ənənələri, gözəl nümunələri var və bu teatr bu gün də, gələcəkdə də yaşayacaqdır.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Müəyyən bir ideya və əxlaqi prinsipi bədii vasitələrlə ifadə edən hər bir səhnə əsəri, istər musiqi, istər poetik əsər olsun, faydalıdır. Bu keyfiyyətlərdən məhrum olan əsər isə, istər opera, istər dram, istər operetta və ya komediya olsun, faydasızdır.

**Üzeyir Hacıbəyov,**
*bəstəkar*

Bu gün millət üçün faydalı və oxucuların zövqləri üçün rəğbətli olan əsər-dram və romandır.

**M.F. Axundov,**
*dramaturq*

Biz teatr səhnəsinin ümumxalq məktəbi olduğunu heç vaxt unutmamalıyıq.

**K. Hotsi,**
*dramaturq*

Teatr müharibə ilə əsas mübarizə vasitələrindən biri və ümumi sülhü qorumaqda beynəlxalq vasitə olmalıdır.

**K.S. Stanislavski,**
*rus teatr xadimi*

Aktyor qardan heykəl yaradan heykəltaraşa bənzəyir.

**Barret,**
*ingilis musiqişünası*

Tariximizi, mədəni təşəkkülümüzü, milli-mənəvi məfkurəmizi özündə yaşadan məbədlərdən biri də teatrdır. Dünənimizi, bu günümüzü canlandırıb gələcəyə aparan mənəvi yaddaş daşıyıcımız sayılan səhnə, teatr sənət ocağı olmaqdan çıxıb, milli-mənəvi dərkimizə, kamilləşməyimizə xidmət edib. Onun sayəsində mütərəqqi ideyaları, demokratiya, azadlıq, millilik, və sülh kimi anlayışları küll olaraq dərk etmişik. Bu bəşəri ideyaların daşıyıcısı olan Azərbaycan teatrının bəlkə də ən böyük nailiyyəti elə budur. Milli teatrımız öz mənbəyini uzaq keçmişlərdən alır. Qədim xalq oyunlarımız və milli bayramlarımızdakı teatr nümunələri fikrimizin isbatıdır. Uzun zaman xalq yaradıcılığında yaşamış bu sənət zamanın axarında professionallıq pilləsinə qalxmışdır. Sənət fədailərinin məbədə çevirdiyi milli teatrımızın tarixində təbii ki, ilkin mərhələ olan xalq teatr və dram dərnəklərinin də müstəsna rolu var. Deyirlər ki, hər hansı bir mədəniyyəti və incəsənəti, onun mənəvi intelekti haqqında ilk təəssurat əldə etmək üçün həmin millətlərin teatrına getmək kifayətdir. Orada hər şey gün kimi aydındır. Belə ki, binanın daxili və xarici arxitektura baxımından klassik görünümü dövlətin teatra münasibətini, tamaşaya baxış sənətçilərin professional səviyyəsini müəyyən etməkdə, tamaşaçılarla tanışlıq isə həmin xalqın mənəvi

dünyası, həyat tərzi, yaşayışı, sənətə və sənətkara olan qarşı diqqətini aşkarlamağa imkan verir. Beləliklə, dövrün və zamanın barometri olan teatr öz xalqının mənəvi intellektual səviyyəsini, simasını bütün rəngləri ilə bir görüşdə rəsm etmiş olur.

XX əsrdə Azərbaycanda maarifçiliyin daha səmərəli və geniş miqyaslı təkamülü başlandı. Həmin inkişafda müstəsna xidmətli olan ziyalılardan biri də mütəfəkkir-filosof Mirzə Fətəli Axundovdur. Mirzə Fətəli həm də milli peşəkar dramaturgiyamızın banisidir. Ədib 1850-1852-ci illərdə "Hekayəti Molla İbrahimxəlil kimyagər", "Hekayəti Müsyö Jordan həkimi-nəbatət və dərviş Məstəli şah cadukünimməşhur", "Sərgüzəşti-vəziri-xani Lənkəran, "Hekayəti-xırs quldurbasan", "Sərgüzəşti-mərdi-xəsis ("Hacı Qara") və 1855-ci ildə "Mürafiə vəkillərin hekayəti" komediyalarını yazıb. Bu komediyalar milli peşəkar teatrımızın təşəkkülü və inkişafı üçün münbit zəmin olub. Milli teatr sənətimizin yaşı əslində xalqımızın tarixi ilə ölçülməlidir. Çünki teatr tarximizin qaynaqlarını araşdırarkən xalq oyunlarından tutmuş teatrlaşdırılmış mərasim tamaşalarına qədər qədim tarixə malik olan teatr sənətimizin yüzilliklərə sığmadığının bir daha şahidi oluruq. Lakin təməli Mirzə Fətəli Axundov tərəfindən qoyulan milli dramaturgiyamızın yaranışı tarixi bizim professional teatrımızın yaşıdır. Teatr sənətimiz hər zaman xalqın düşünən beyni, vuran ürəyi olub. Zamanla teatr çox böyük təbliğat və təşviqat işlərini öz üzərinə götürüb, ideoloji ideyalar səhnədən daha uca səslə yayılıb. Teatrları gənc nəslə tanıtmaq, sevdirmək, milli dəyərlərimizi, tariximizi onlara daha qabarıq şəkildə göstərmək üçün kitabxanada bir sıra tədbirlər keçirilir. Bu tədbirlərdən biri də ***oxucularla söhbət*** adlanır. Söhbət "Üz

tutduğumuz məkanlar" başlığı altında ali məktəb tələbələri və yuxarı sinif şagirdləri arasında keçirilir. Kitabxanaçı gələn qonaqları və iştirakçıları salamladıqdan sonra teatrlar, onlatın yaranma tarixi və xidmətləri və s. barədə məlumat verir.

***Kitabxanaçı:*** - Xalqımızın milli-mənəvi irsini zənginləşdirən sərvətlərdən biri də oyun-tamaşa mədəniyyətidir. Bugünkü peşəkar səhnə sənətimiz məhz xalq oyun-tamaşalaının, təşəkkül taparaq böyük inkişaf yolu keçib. İnkişaf yolunu keçə-keçə formalaşıb. Meydan teatrı xalqın mənəvi varlığını, idrakının təkamül mərhələlərini, dünyanın dərkolunmaz hadisələrinə münasibətini, əsatir və folklor mədəniyyətinin estetik prinsiplərini müxtəlif məzmun və formalarla təcəssüm etdirən oyun vasitələrinin, üslub və janrlarının bədii toplumudur. Meydan teatrının öz estetikası, öz poetikası xüsusiyyətləri, öz oyun-üslub parametrləri, ölçüləri, öz səhnə-tamaşaçı, mətn-ifaçı prinsipləri var. Bütün bunlar Azərbaycanda peşəkar dramaturgiyanın təşəkkülünə və bir qədər sonra dünyəvi teatrın yaranmasına səbəb olub.

*Kitabxanaçı iştirakçıları məlumatlandırdıqdan sonra sözü iştirakçılara verir.*

***I iştirakçı:*** - Azərbaycan teatr sənətinin qədim və zəngin tarixi vardır. İnsanın əmək fəaliyyəti ilə bağlı oyunlar və rəqslər, mövsüm bayramları, aşıq sənəti, meydan mərasimləri, "Qaravəlli" tipli müxtəlif tamaşa növləri xalq reatrının əsasını müəyyən etmiş, milli teatrın gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır. Xalq teatrının repertuarını təşkil edən əxlaqi və tərbiyəvi əhəmiyyətə malik əsərlərlə yanaçı, dini tamaşalar da teatr sənətinin formalaşmasında özünəməxsus rol oynamışdır. XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda cərəyan edən içtimai-siyasi hadisələr ölkədə

maarifçilik hərəkatının inkişafına güclü təkan vermişdir. Həmin dövr Azərbaycan teatrı üçün də əlamətdar olmuşdur. Böyük mütəfəkkir Mirzə Fətəli Axundovun ədəbiyyatımıza dram janrını gətirməsi xalq teatrının peşəkar teatr sənətinə çevrilməsində həlledici rol oynamışdır. Böyük maarifçi Həsən bəy Zərdabinin və görkəmli yazıçı Nəcəf bət Vəzirovun təşəbbüsü ilə 1973-cü ildə Bakıda M. F. Axundovun "Lənkəran xanının vəziri" və "Hacı Qara" komediyalarının tamaşaya qoyulması Azərbaycanda, eləcə də bütün müsəlman Şərqində dünyəvi peşəkar teatrın təməlini yaratmışdır. Teatrın böyük içtimai əhəmiyyətini dərk edən Azərbaycan ziyalıları Bakıda, Qubada, Şəkidə, Şuşada, Naxçıvanda həmçinin Tiflisdə, İrəvanda teatr tamaşaları təşkil etmişlər. Azərbaycanın görkəmli ziyalıları Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov və başqaları dövrün teatr repertuarlarını zənginləşdirmişlər. Rusiyada və Avropada təhsil aldıqdan sonra vətənə qayıtmış azərbaycanlı gənclər dünya klassiklərinin əsərlərini tərcümə edib tamaşaya qoymaqla teatr həvəskarlarını dünya ədəbiyyatının nümunələri ilə tanış edirdilər.
***II iştirakçı:*** - Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Hüseynqulu Sarabski, Abbas Mirzə Şərifzadə, Mirzəağa Əliyev, Sidqi Ruhulla, Ülvi Rəcəb və başqalarının səyləri nəticəsində Azərbaycanda milli peşəkar aktyorluq məktəbi formalaşdı. Məhz bu dövrdə Azərbaycanda xüsusi teatr binalarının inşası başlandı və peşəkar teatrla bağlı digər sənət növləri də inkişaf etdirildi.

Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra, ölkənin bir çox sahələrində olduğu kimi, teatr sənətimizin inkişafı naminə mühüm işlər həyata keçirildi. Azərbaycan Xalq

Cümhuriyyətinin bütün dövlət və hökumət rəhbərinin iştirakı ilə dövlət teatrının rəsmi açılışı oldu. Azərbaycanda peşəkar teatr sənətinin inkişafı Çəlil Məmmədqluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı kimi böyük sənətkarların xalqımızın tarixi keçmişini, məruz qaldığı sarsıntıları, xeyirlə şərin qarşıdurması ilə bağlı fəlsəfi düşüncələri canlandıran səhnə əsərləri ilə böyük vüsət aldı.

***III iştirakçı:*** - Azərbaycan Milli Dram Teatrı ilə yanaşı, opera və baletin də qədim tarixi kökləri vardır. Muğam sənətimizin uzun inkişaf yolu keçərək xüsusi ifaçılıq məktəbinə çevrilmiş, muğam əsasında yaradılmış tamaşalar meydana çıxmışdır. Bunların məntiqi nəticəsi olaraq dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun yazdığı "Leyli Məcnun" operasının 1908-ci ildə ilk tamaşası ilə Azərbaycanda və bütün müsəlman Şərqində opera sənətinin təməli qoyuldu. Ü. Hacıbəyovla birlikdə Azərbaycanda Avropa tipli peşəkar musiqi sənətinin bünövrəsini qoyan Müslüm Maqomayevin "Şah İsmayıl" operası da muğam operası janrının incilərindən biri kimi Azərbaycan səhnəsində həmişəlik yer tutdu. Ü. Hacıbəyovun dramaturgiya sahəsindəki fəaliyyəti də milli mədəniyyət tariximizdə mühüm mərhələdir. O, həm bəstəkar, həm də dramaturq kimi 1909-1913-cü illərdə yaratdığı əsərləri ilə Azərbaycan teatrına musiqili komediya janrını gətirdi. Bu janr sonralar görkəmli bəstəkarlar Qara Qarayevin, Rauf Hacıyevin operettaları bir çox ölkələrdə teatrların repertuarlarına daxil edildi. 1940-cı ildə Əfrasiyab Bədəlbəylinin ilk milli Azərbaycan baleti "Qız qalası" tamaşaya qoyuldu. 1952-ci ildə isə Q. Qarayevin məşhur "Yeddi gözəl" baletinin səhnəyə qoyulması respublikanın mədəni həyatında əlamətdar hadisəyə çevrildi. Qara Qarayevin bu əsəri, habelə onun "İldırımlı

yollarla" baleti Azərbaycan teatr sənətinin dünyada şöhrət qazanmasına xidmət etdi. Azərbaycanda opera və balet sənətinin inkişafında görkəmli Azərbaycan dirijoru və bəstəkarı Niyazinin də böyük xidmətləri olmuşdur.

***IV iştirakçı:*** - Azərbaycan teatr sənətinin sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil sənət ocaqlarının yaranmasına gətirib çıxardı. Bu gün respublikamızda Akademik Milli Dram və Opera və Balet teatrları ilə yanaşı, Musiqili Komediya Teatrı, Rus Dram Teatrı, Gənc Tamaşaçılar Teatrı, Kukla Teatrı, Marionet Teatrı, Pantomima Teatrı, "Yuğ" Teatrı, Bakı Bələdiyyə Teatrı və başqa teatrlar fəaliyyət göstərirlər. İrəvan, Naxçıvan, Gəncə, Sumqayıt, Lənkəran, Şəki, Salyan, Mingəçevir, Qazax, Qax, Qusar, Ağdam, Şuşa, Füzuli və digər şəhər və rayonlarda fəaliyyət göstərən teatrlar da öz tamaşaları ilə sənətrsevərlərin dərin rəğbətini qazanmışlar.

***V iştirakçı:*** - Milli mədəniyyətimizin inkişafında, vətənpərvərlik hisslərinin aşılanmasında, yüksək əxlaqi keyfiyyətlərin, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəna rol oynamış Azərbaycan teatrı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz töhfəsini vermişdir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra milli teatrımızın inkişafı üçün geniş perspektivlər açılmışdır. Hazırda teatrlar müstəqil dövlətimizin qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayır və yaxından iştirak edirlər. Vaxtilə müsəlman Şərqində ilk dünyəvi peşəkar teatr olan Azərbaycan teatrının milli mədəniyyətimizin inkişafındakı mühüm rolunu, onun yaradılmasının 125 illik yubileyinin keçirilməsinin

respublikanın mədəni həyatında böyük əhəmiyyətini nəzərə alaraq, ulu öndər Heydər Əliyev sərəncam imzalamışdır.

Şagirdlər arasında teatrların təbliğini gücləndirmək və onları bu sənət ocaqlarının fəaləyyəti ilə daha yaxından tanış etmək, teatrlara getməyi ənənə halına salmaq məqsədilə kitabxanada müxtəlif adda tədbirlər keçirilə bilər. Bunlardan biri ***rəsm müsabiqəsi***dir. *"Fırçamda teatr*" adlı rəsm müsabiqəsində uşaqlar müxtəlif teatrlarımızın binasınn rəsmlərini, oraya məxsus əşya və atributları, tamaşa anını, nağıl personajlarının və teatr ustadlarımızın rəsmini çəkirlər. Münsiflər tərəfindən fərqləndirilən rəsmlər divardan asılır və iştirakçılar mükafatlandırılır.

Milli teatrlarımızı gənc nəslə tanıtmaq, sevdirmək, milli dəyərlərimizi, tariximizi onlara daha səlis şəkildə çatdırmaq üçün kitabxanada kitab müzakirəsi, oxucu konfransı, icmal, "dəyirmi masa", oxucularla söhbət, sorğu, rəsm və digər müsabiqələr, ədəbi-bədii gecə də keçirilə bilər.

*"Səhnədən boylanan həyat" adlı "***dəyirmi masa"ya** alimlər, tarixçilər, teatrşünaslar, folklorşünaslar, incəsənət xadimləri, aktyorlar, müəllimlər, ali məktəb tələbələri və s. dəvət edilirlər. Tədbiri açan kitabxanaçı hər kəsi salamladıqdan sonra mövzuya uyğun olaraq çıxışa başlayır və teatrlar haqqında məlumat verir.

***Kitabxanaçı:*** - Bu sadə həqiqətdir ki, böyük şəhərlərə gələn qonaqlar ilk növbədə həmin yerin teatrları, muzeyləri, tarixi abidələri ilə daha çox maraqlanırlar. 2009-cu ildə İslam Mədəniyyətinin Paytaxtı elan olunmuş Bakımızda da belə sənət ocaqları, memarlıq abidələri çoxdur və paytaxtımıza gələnlər onun tarixi abidələrinə, gözəl binalarına heyran olurlar. Belə memarlıq nümunələrindən biri də teatr binalarıdır.

Teatr xalqın mədəniyyətinin, inkişaf səviyyəsinin göstəricisidir. Odur ki, bu zəngin fəaliyyət sahəsinin yaranması xalqların, mədəniyyətlərin inteqrasiyası kimi qəbul olunur. Azərbaycan teatrından danışarkən bu fikri tam qəbul etmiş oluruq. Belə ki, ötən əsrin əvvəllərində mədəniyyət, sənət, ən əsası teatr sahəsindəki sıçrayış - milli operanın, musiqili komediyanın yaranması xalqımızın təfəkkür səviyyəsi, mədəni inkişafını göstərmiş oldu.

*Birinci iştirakçı "Sənət mücahidləri sevər" adlı çıxışında Tənqid-Təbliğ Teatrı haqqında məlumat verir.*

***I iştirakçı:*** - 1921-ci ildə Bakıda Tənqid-Təbliğ Teatrı açılmışdır. Bu, keçmiş ittifaq respublikaları içərisində birinci teatr idi. Teatrın qarşısında bir məqsəd qoyulmuşdu: keçmişin qalıqlarından, mövhumatın zərərli ənənələrindən xilas olmaq uğrunda mübarizə aparmaq. Buna görə də teatr gülüşü, satiranı özünə kəsərli bir silah kimi seçmişdi. Adından göründüyü kimi, burda köhnə dünya satira atəşinə tutulur, təbliğat vasitəsilə insanlar yeni həyat uğrunda mübarizəyə səslənirdi. Bu teatrın özünə xas repertuarı vardı. Tamaşaya qoyulan əsərlər, əsas etibarı ilə, bir pərdədən ibarət kiçik pyeslər idi. Teatr üçün pyeslər yazıçılardan başqa teatrın təcrübəli aktyorları tərəfindən də yazılırdı. Teatr Bakının fəhlə rayonlarında böyük müvəffəqiyyətlə çıxış edirdi. Belə bir vəziyyət 1925-ci ilədək davam etdi. Respublika artıq bərpa dövrünə daxil olduğundan teatrın qarşısında da yeni vəzifələr qoyulurdu. Onlar çoxpərdəli, mürəkkəb sujetli pyeslər tələb edirdilər. Buna görə pyeslərin qayə və istiqamətini daha dolğun əsərlərlə əvəzləmək üçün yeni teatra ehtiyac duyulurdu. Bu iş dövrün görkəmli teatrşünası, parlaq zəka sahibi Məmmədsadıq Əfəndiyevin rəhbərliyi ilə aparılırdı. Nəhayət,

1925-ci ildə Tənqid-Təbliğ Teatrı əsasında yeni Fəhlə-Kəndli Teatrı yaradıldı. Məmmədsadıq Əfəndiyev teatrın direktoru təyin edildi. Teatra istedadlı aktyor və aktirisalar cəlb olundu.
***II iştirakçı** - "Zərif teatr missiyası-Üns"adlı çıxışına başlayır.*
***II iştirakçı:*** - "Üns" - dostlaşma, mehribanlıq deməkdir. 2006-cı ildə Bakıda Azərbaycan tamaşaçısının dostuna çevrilən, ona bəşəri, insani hislər aşılayan bir teatr fəaliyyətə başladı: "Üns" Yaradıcılıq Səhnəsi. Azərbaycan peşəkar teatrının tarixində artıq 10 illiyini geridə qoymuş "Üns" də var. Layihə görkəmli şərqşünas-alim, tərcüməçi, filologiya elmləri doktoru Aida İmanquliyevanın xatirəsinə ithaf olunub. "Üns" Yaradıcılıq Səhnəsinin yaradıcı və bədii rəhbəri "Azərbaycan mədəniyyətinin Dostları" Xeyriyyə Fondunun İdarə Heyətinin üzvü, M.V. Lomonosov adına Moskva Dövlət Universiteti Bakı Filialının rektoru, professor Nərgiz Paşayevadır. Layihənin əsas məqsədi Azərbaycanın zəngin teatr sənətinə daha bir yenilik gətirmək, incəsənət və mədəniyyətdə Qərb və Şərq mədəniyyətinin sintezinin bədii əksini göstərməkdir. "Üns"-ü digər teatrlardan fərqləndirən cəhətlərdən biri də onun dizaynında, binasının ümumi görünüşü və interyerində özünü göstərir. Kiçik həyətlə foye həmahənglik təşkil edir. Tamaşaçı teatra daxil olan kimi milli və eyni zamanda, ümumbəşəri ideyalarla, mədəniyyət və incəsənətlə ünsiyyətə girir. Qeyd edək ki, ötən əsrin əvvəlinə aid binanın yeni tikilmiş hissəsinin memarı Oqtay Səttarovdur.
***III iştirakçı:*** - Sənətşünaslar Bakı Bələdiyyə Teatrını "Döyüşkən teatr" adlandırmaqda haqlıdırlar. Öz pərəstişkarları ilə görüşə gəldiyi gündən vətənpərvərlik mövzusunda hazırladığı tamaşaları ilə seçilən, yaradıcı kollektivin sorağı cəbhə və sərhəd döyüş bölgələrindən eşidilən Bakı Bələdiyyə

Teatrının səhnə həyatı verdiyi hər bir əsərin bədii tutumuna, qayəsinə, ideya və məzmununa xüsusi diqqətlə yanaşır. Bu səbəbdən də hər bir tamaşası maraqla qarşılanır və uzun müddət repertuardan düşmür. Fərəhlidir ki, həmkarları ilə müqayisədə çox cavan olan bu teatra qardaş Türkiyədə də böyük maraq var. Səhnəyə qoyulan tamaşalar əsasən tarixi hadisələri əks etdirir.

*Növbəti iştirakçı Pantomim Teatrı haqqında məlumat vermək üçün söz alır.*

***IV iştirakçı:*** - Güzgü qarşısında dayanıb müxtəlif təsəvvür edilən əşyaları, bir növ, canlı şəkildə hərəkətə gətirməyə çalışın. Sanki olmayan əşyalar canlanaraq həqiqi bir ölçülərə malik olacaqdır. Eyni zamanda bütün varlığınızla hiss etməlisiniz ki, onlar həqiqətən də vardılar. Fikir və hərəkət bir vəhdətdə birləşdikdə isə artıq aktyor oyunu yaranır. Və bu oyun pantomim adlanır. Adi teatrda danışılması və yaxud oynanılması mümkün olmayan şeylər pantomim tamaşasında göstərilir, oynanılır. Pantomima teatr və ədəbiyyat kimi müxtəlif janrlarda olur: faciə, dram, məişət novellası, pamflet, felyeton, nağıl, poema, lirik şeir və s. O, tək aktyor tərəfindən ifa edilən estrada miniatür formasında, yaxud çoxpərdəli, tamamlanmış, dramatik sujetli tamaşa kimi də ola bilər. Pantomima həm də mahnı, musiqi, hətta deklamasiya ilə də müşayiət olunur. Buna misal olaraq deyə bilərik ki, Çin, Hindistan, İndoneziya, Yaponiyada mövcud olmuş teatr tamaşalarının əsasını bir vaxtlar məhz pantomima təşkil edirdi. Bu tamaşaların aktyorları məhdud, qəti və dəqiq şəkildə qəbul edilmiş bədən və əl-qol hərəkətlərinin sisteminə tabe idilər. Bu sənətin kökləri Avropada qədim Yunanıstan və Romaya gedib çıxır. Burada da həmçinin məhdud oyun sistemi mövcud idi.

Lakin, Şərqdən fərqli olaraq, zaman keçdikcə böyük improvizə və dəyişikliklər inkişaf edərək indiki dövrdəki səviyyəsinə çatmışdır. Pantomimanın izləri özünü orta əsrlərdə də biruzə verir və bütün ölkələrin teatr sənətinə özünün müsbət təsirini göstərir. Nəhayət, indiki dövrdə onun adı əsasən Fransa pantomim məktəbinin adı ilə bağlıdır. XXI əsrin astanasında Azərbaycan teatr tarixinə də pantomim səhifəsi əlavə olundu. Onu da əlavə edək ki, tünya teatr içtimaiyyəti pantomimi müəyyən çərçivə daxilində qəbul edir və qədim dövrdən indiyədək kiçik və dar istiqamətlə inkişafını izləyir. Lakin Azərbaycan Dövlət Pantomim Teatrı bu istiqaməti genişləndirərək dar çərçivə daxilində deyil, böyük yaradıçılıq potensialından istifadə edərək müxtəlif istiqamətlərdə axtarışlar aparır. Çünki teatr 2000-ci ildə dövlət statusu almışdır və böyük ruh yüksəkliyi ilə yenə də öz yaradıcılıq işini davam etdirir.

***V iştirakçı:*** - *Ötən əsrin* 90-cı illərində "Yuğ" teatrı hər baxımdan yeni bir sənət hadisəsi idi. Bu teatrın elə ilk tamaşası sübut etdi ki, "yuğ" çuların sənət axtarışları Azərbaycan mədəniyyətində təzə söz, təzə nəfəsdir.

Milli Teatr Günü münasibəti ilə görüləsi işlərdən biri də teatrların təbliğatı məqsədi ilə kitabxana tərəfindən təşkil olunan ***ekskursiya***dır. Ekskursiyanın müddəti bir neçə gün ola bilər. Bu müddət ərzində oxucular kitabxana tərəfindən paytaxtımızdakı teatrlara səyahət edirlər. Səyahətin əsas məqsədi oxuculara tariximizi, ədiblərimiz və onların qələmə aldığı əsərləri, keçmişimizi, milli dəyərlərimizi, incəsənət və mədəniyyətimizi və eləcə də adı qeyd olunan teatrı tanıtmaqdır. İlk günki səyahət Akademik Milli Dram Teatrıdır.

Teatrda kitabxanaçı uşaqları teatrlarımız haqqında olan bilgilərlə məlumatlandırır.
***Kitabxanaçı***: - Deyirlər ki, hər hansı bir xalqın mədəniyyətinə bələd olmaqla, onun mənəvi intelekti haqqında ilk təəssurat əldə etmək kifayətdir. Belə ki, binanın daxili və xarici arxitektura baxımından klassik görünüşü dövlətin teatra münasibətini, tamaşa ilə ünsiyyət sənətçilərin professional səviyyəsini müəyyən etməkdə, tamaşaçılarla tanışlıq isə həmin xalqın mənəvi dünyası, həyat tərzi, yaşayışı, sənətə qarşı diqqətini aşkarlamağa imkan verir. Tariximizi, mədəni təşəkkürümüzü, milli-mənəvi məfkurəmizi özündə yaşadan məbədlərdən biri də teatrdır. Dünənimizi, bu günümüzü canlandırıb gələcəyə aparan mənəvi yaddaş daşıyıcımız sayılan teatr artıq sənət ocağı olmaqdan çıxıb milli-mənəvi dərkimizə, kamilləşməmizə xidmət edib. Onun sayəsində mütərəqqi ideyaları, demokratiya, azadlıq, millilik və sülh kimi anlayışları küll olaraq dərk etmişik. Bu bəşəri ideyaların daşıyıcısı olan Azərbaycan teatrının bəlkə də ən böyük nailiyyəti elə budur. Milli teatrımız öz mənbəyini uzaq keçmişlərdən alır. Qədim xalq oyunlarımız və milli bayramlarımızdakı teatr nümunələri fikrimizin isbatıdır. Uzun zaman xalq yaradıcılığında yaşamış bu sənət zamanın axarında professionallıq pilləsinə qalxmışdır. Sənət fədailərinin məbədə çevirdiyi milli teatrımızın tarixində təbii ki, ilkin mərhələ olan xalq teatr və dram dərnəklərinin də müstəsna rolu vardır. Teatrın yaranması XX əsrin əvvəllərinə təsadüf edir. Teatrımızın tarixi, bir qayda olaraq, 1873-cü il martın 10-da Bakıda "Vəzir-xani Lənkəran" komediyasının oynanılmasıyla başlanır. O vaxtkı Azərbaycan gerçəkliyi üçün bu, çox böyük hadisə idi. Bakıda göstərilən ilk milli tamaşa yalnız

Azərbaycanda deyil, həmçinin Qafqazda yaşayan bütün azərbaycanlılar arasında teatr hərəkatının yayılmasına səbəb olmuşdur. Həmin illərdə təkcə "Nadir şah" əsəri Azərbaycandan kənarda 34 şəhərdə Azərbaycan dilində oynanılmışdır. H.Mahmudbəyov, S.M.Qənizadə, N.Nərimanov, Y.Haqnəzərov, Ə.Haqverdiyev, N.Vəzirov, Ə. Haqverdiyev, H.Ərəblinski, Ş. Məmmədova XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Azərbaycan teatr sənətinin görkəmli xadimləri idi.

*Daha sonra Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının işçisi oxucuları salamladıqdan sonra həmin teatr haqqında oxuculara məlumat verir.*

***Teatr işçisi:*** - Martın 10-u təkcə teatrımızın deyil, həm də mədəniyyətimizin bayramıdır. Həmin tarix hər il Azərbaycan teatrının yaranması günü kimi qeyd olunur. Böyük sənət məbədimiz - Akademik Milli Dram Teatrının teatr tariximizdə öz yeri var. Öncə qeyd edək ki, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı öz fəaliyyəti dövründə bu sahədə məktəb rolunun oynamış, bu qocaman mədəniyyət ocağında peşəkar aktyor nəsli yetişmişdir. Ümumiyyətlə, mədəniyyətimizin dövlət tərəfindən himayə olunmasının ən gerçək və konseptual forması ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə daha əhatəli miqyas almışdır...

*İkinci gün oxucular Azərbaycan ....Milli..... Akademik Opera və Balet Teatrına səyahət edir. Teatr işçisi qonaqları salamladıqdan sonra teatr haqqında məlumat verir.*

***Teatr işçisi:*** - Azərbaycan xalqı özünün zəngin musiqi mədəniyyətilə fəxr etməyə haqqı var. Dahi Üzeyir Hacıbəyovun və Bülbülün axtarışları, gərgin zəhməti sayəsində əsl sənət adamları - xanəndələr, müğənnilər yetişmişdir. Azərbaycan opera və balet ifaçılığının bir əsrə yaxın yaşı var. Ötən əsrin birinci onilliyində indiki Opera və Balet Teatrının binası istifadəyə verildikdən sonra dünyanın neft səltənəti kimi tanınan Azərbaycana Qərb sənətçilərinin marağı artmaqda idi. Müxtəlif ölkələrin sənət ustaların Bakıda öz məharətlərini nümayiş etdirirdilər. İllər ötdü və ötən əsrin ortalarında nəhayyət, milli balet kadrları səhnəyə gəldilər. Əfrasiyab Bədəlbəyli Azərbaycan milli baletimizin banisi hesb edilir. Bəstəkar, dirijor, musiqişünas, liberettoçu, xalq artisti Əfrasiyab Bədəlbəyli çoxsaylı musiqi əsərləri ilə əbədiyaşarlıq qazanmışdır. İlk Azərbaycan operasının yaranmasında müəyyən təkan rolunu belə bir fakt oynamışdır. "Leyli və Məcnun" operasının yaranmasından hələ çox qabaq böyük maarif xadimi Həsənbəy Zərdabi Üzeyir Hacıbəyova "xalq melodiyaları əsasında opera yazmaq" ideyasını vermişdir. Əlbəttə, ilk Azərbaycan operasının yaranmasında bir çox hadisələrin mühüm əhəmiyyəti olmuşdur. Buna nümunə kimi əsrlər boyu xalq arasında musiqi ilə müşayiət olunan tamaşaları, oyunları, Şuşada və Bakıda verilən məşhur "Şərq konsertləri"ni, həm də Qərb və rus bəstəkarlarının klassik opera nümunələrini göstərə bilərik. İlk Azərbaycan operasının xalq arasında qazandığı böyük müvəffəqiyyət haqda Üzeyir Hacıbəyov belə yazırdı: "Zənnimcə, bu müvəffəqiyyət onunla izah edilir ki, artıq Azərbaycan xalqı öz səhnəsində Azərbaycan operasının yaranmasını gözləyirdi. "Leyli və

Məcnun" da isə əsil xalq musiqisi ilə məşhur klassik sujet birləşmişdir".

*Üçüncü gün oxucular kitabxanaçının rəhbərləyi ilə Azərbaycan Dövlət Musiqili Komediya Teatrına səyahət edirlər. Teatr işçisi adı gedən teatr haqqında məlumat verməyə başlayır:*

***Teatr işçisi:*** - Bu sadə həqiqətdir ki, böyük şəhərlərə gələn qonaqlar ilk növbədə həmin yerin teatrları, muzeyləri, tarixi abidələri ilə daha çox maraqlanırlar. Bakımızda da belə abidələr çoxdur və bu şəhərə gələnlər onun tarixi abidələrinə, gözəl binalarına heyran olurlar. İçərişəhər, Tarix muzeyi, Opera teatrı və onlarla belə milli arxitektura nümunələri şəhərimizin gözəlliyini qat-qat artırır. Belə memarlıq abidələrindən biri də Azərbaycan Dövlət Musiqili Komediya Teatrının binasıdır. Bu teatr respublikanın ən böyük musiqili teatrlarındandır. Azərbaycan milli musiqili komediya janrı XX əsrin əvvəllərində yaranmışdır. Azərbaycanda bu janrın da yaradıcısı Üzeyir Hacıbəyovdur. Onun 1909-cu ildə yazdığı "Ər və arvad" musiqili komediyasının ilk tamaşası 24 may 1910-cu ildə Bakıda Nikitin qardaşlarının sirk binasında olmuşdur. Məhz bu tamaşa ilə də Azərbaycan Musiqili Komediya Teatrının əsası qoyulmuşdur. Sonrakı illərdə Ü. Hacıbəyovun bir sıra komediyaları oynanılmışdır. İllər ötdükcə teatrın həm Azərbaycan, həm də rus bölmələrində zəngin repertuar formalaşmışdır.

*IV gün oxucular kitabxanaçının rəhbərləyi ilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına səyahət edirlər. Teatr işçisi oxucuları salamladıqdan sonra bu sənət ocağı haqqında məlumat verməyə başlayır.*

***Teatr işçisi:*** - Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı 1928-ci ildə yaranmış və indiyə kimi milli səhnə sənəti tariximizə neçə-neçə aktyor və rejissor bəxş etmişdir. Neçə-neçə dramaturqun ilk səhnə əsəri məhz bu sənət ocağında oynanılmışdır. Azərbaycan və rus bölmələrindən ibarət kollektiv öz yaradıcılıq fəaliyyətində məktəblilərin, yeniyetmələrin və gənclərin etik-estetik tərbiyəsini başlıca istiqamət kimi götürmüşdür. Yaradıcılıq axtarışlarında teatrın yeni dramaturqlarla əlaqəsi daha da möhkəmlənmiş və bu, səmərəli nəticələr vermişdir. Teatr tamaşaçılarını Azərbaycan xalqının qəhrəman keçmişi ilə yaxından tanış etmiş, onlarda qəhrəmanlıq hissləri aşılamışdır. Teatr daim öz professonal səviyyəsini yüksəldir, zamanla səsləşən yüksək ideyalı, böyük tərbiyəvi əhəmiyyətə malik maraqlı tamaşalar hazırlayır.
*V gün oxucular kitabxanaçının rəhbərləyi ilə çətin yolları mərdliklə irəliləyən İrəvan Azərbaycan Dram Teatrına səyahət edirlər. Teatr işçisi oxucuları salamladıqdan sonra teatr haqqında məlumat verməyə başlayır:*
***Teatr işçisi:*** -1928-ci ildə dövlət statusu alan İrəvan Dövlət Azərbaycan Dram Teatrı 1935-ci ildən görkəmli dramaturqumuz Cəfər Cabbarlının adını daşıyıb. Bu teatrın milli mədəniyyətimizin tərəqqisində böyük xidmətləri vardır. Onun qazandığı uğurları Azərbaycan mədəniyyətinin böyük bir parçası hesab etmək olar. İrəvan Dövlət Azərbaycan Dram Teatrı həqiqətən keşməkeşli sənət yolu keçmiş, ziddiyyətli münasibətlərlə, təqib və təzyiqlərlə üzləşmişdir. 1988-ci ildə ermənilərin başladığı işğalçılıq siyasətinin ağır zərbələrini alanlardan biri də bu teatr və bu sənət ocağının kollektivi olmuşdur. Teatr Bakı şəhərində məskunlaşmışdır. İrəvan Dövlət Azərbaycan Dram Teatrı milli teatr sənətimizin

inkişafında mühüm yer tutur və o, Qafqazın qocaman sənət ocaqlarından biridir. Teatr repertuarını bu günün reallıqları çərçivəsində qurmağa çalışır.
*Ekskursiyanı paytaxtımızdan kənarda da, davam etdirmək olar. VI gün oxucular kitabxanaçının rəhbərləyi ilə oxucular Naxçıvan Musiqili Dram Teatrına səyahət edir. Onları qarşılayan teatr işçisi qonaqları məlumatlandırır.*
***Teatr işçisi:*** -130 il əvvəl, bir yaz günündə qədim Naxçıvan torpağında Zaviyyə məhəlləsində dövrün mütəqəqqi ziyalılarından biri olan Hacı Nəcəf Zeynalovun evində Mirzə Fətəli Axundovun "Müsyo Jordan və Dərviş Məstəli şah" komediyası tamaşaya qoyulmuşdur. 1883-cü il may ayının 15-də tamaşaya qoyulan bu komediya Naxçıvan teatrının təvəllüdünə çevrilmişdir. Ötən müddət ərzində keçilən yaradıcılıq yolu heç də hamar olmayıb. Ciddi təqiblərdən, soyuq münasibətlərdən, gərgin və dramatik mübarizələrdən keçib bu yol. Əsası böyük demokrat yazıçı, qüdrətli dramaturq Cəlil Məmmədquluzadə və tanınmış ədib Eynalı bəy Sultanov tərəfindən qoyulan bu teatrın yaranışı M.F.Axundovun "Müsyo Jordan və Dərviş Məstəli şah" komediyası ilə olmuşdur. Qeyd edək ki, həmin tamaşada qüdrətli ədib Cəlil Məmmədquluzadə Müsyo Jordan rolununda çıxış etmişdir. Hal-hazırda da bu teatr səmərəli fəaliyyət göstərir və yeni-yeni əsərlərlə tamaşaçıları sevindirir.

*Milli Teatr Günü münasibətilə keçiriləcək tədbirdən biri də "konfrans"dır. Kitabxanada təşkil olunan konfransda teatrşünaslar, aktyor və incəsənət adamları, yazarlar, müəllim və şagirdlər, eləcə də ali məktəb tələbələri iştirak edirlər. Kitabxanaçı qonaqları salamladıqdan sonra teatrlar haqqında məlumat verir.*

***Kitabxanaçı:*** - Hələ insanlarda dil ünsiyyəti yaranmazdan əvvəl adamlar "danışan" hərəkət oyunları toplusuna malik olmuşdur. Dünyanın hər dörd cəhətində yaşayan ilk ibtidai insanlar uzağı, qonşu qəbiləni tanıyırdılar. Ancaq bu gün elm sübut edib ki, onların hərəkət oyunları ilə danışmalarında bənzərlik, eynilik həddindən artıq çoxdur. İnsanların ov ovlaması, quş quşlaması özü böyük bir oyun idi. Ova çıxanlar hərəsi bir səmtdə, gizləndikləri yerdə hərəkətlərlə "danışır", özləri də düşünmədən oyun anlamının ifadə vasitələrini zənginləşdirdilər. Açıq havada oynanılan, el-oba məskunlaşan yurdun mərkəzində, şəhər meydançalarında, karvansaralarda, bazar içində, küçələrdə, kənd əkənək yerlərinin yanında göstərilən kütləvi xalq tamaşalarına ümumiləşdirilmiş şəkildə, sənət növü kimi "Meydan teatrı"deyilir. Meydan teatrı xalqın mənəvi varlığını, idrakını təkamül mərhələlərini, dünyanın dərk olunmaz hadisələrinə münasibətini, əsatir və folklor mədəniyyətinin estetik prinsiplərini müxtəlif məzmun və formalarla təcəssüm etdirən oyun vasitələrinin, üslub və janrlarının bədii toplumudur. Bu tamaşalarda incəsənətin bir neçə janrının bir-birini tamamladığını görürük: rəqs, musiqi, mahnı, xor, danışıq, habelə idman-akrobatik növlər mövcud tədbirlərin əsasını təşkil etmişdir.

Xalqımızın milli-mənəvi irsini zənginləşdirən sərvətlərdən biri də oyun-tamaşa mədəniyyətidir. Bugünkü peşəkar səhnə sənətimiz məhz xalq oyun-tamaşalarının, geniş mənada meydan teatrının zəminində təşəkkül taparaq böyük inkişaf yolu keçib. Meydan teatrının öz estetikası, öz xüsusiyyətləri, öz oyun-üslub parametləri, ölçüləri, öz səhnə-tamaşaçı, mətn-ifaçı prinsipləri var. Bu nəzəri əsasların toplu halında öyrənilməsi, fundamental elmi şəkildə araşdırılması xalqımızın

dərin qatlı mənəvi-mədəni irsinin zənginliyinə geniş üfüqlər açır. Bütün bunlar Azərbaycanda peşəkar dramaturgiyanın təşəkkülünə və bir qədər sonra dünyəvi teatrın doğuluşuna səbəb olub.

*Kitabxanaçının çıxışından sonra tələbələr söz alırlar.*

*İlk çıxışçı milli teatrımızın tarixindən mühüm anları xatırladır.*

***I çıxışçı:*** - 1873-cü ilin 10 martında "Lənkəran xanınnın vəziri" tamaşası Bakıda səhnəyə qoyuldu. 1875-ci ildə Qubada, 1879-cu ildə Şəkidə, 1883-cü ildə Naxçıvanda teatr tamaşaları göstərildi.

1880-ci ildə Hacı Zeynalabdin Tağıyev Bakıda ilk teatr binası tikdirdi və və bu teatr xalq arasında "Tağıyev teatrı" kimi tanındı, sevildi, teatr tariximizdə yeni bir səhifə açdı.

1896-cı ildə Həsən bəy Zərdabi Bakıda "Birinci müsəlman dram truppası" adlı ilk professional teatr kollektivini təşkil etdi.

1897-ci ildə Bakıda ilk dəfə "Artislər ittifaqı" yaradıldı.

1906-cı ildə Bakıda "Müsəlman dram artistləri" şirkəti quruldu.

1908-ci il yanvarın 12-də Bakıda ilk milli opera - Uzeyir Hacıbəylinin "Leyli və Məcnun" əsərinin tamaşası ilə Azərbaycanda professional musiqi teatrının əsası qoyuldu. 1910-cu ildə "Səfa " adlı yeni mədəni-maarif cəmiyyəti və onun nəzdində teatr şöbəsi fəaliyyətə başladı.

1917-ci ildə Bakıda "Müsəlman artistləri ittifaqı" yaradıldı.

Teatr tariximizlə bağlı kifayət qədər belə faktlar var.

***II çıxışçı:*** - Paytaxt Bakının mədəniyyət ocaqları sırasında uşaq və yeniyetmələrin sevimli ünvanına çevrilmiş Bakı Uşaq Teatrı fəaliyyət göstərir. Bu teatr kiçik tamaşaçıların bədii təfəkkürlərinin formalaşmasında xüsusi rol oynamaqla bərabər, maraqlı və həm də çətinliklərlə dolu on illik bir zaman məsafəsini qət edib. Teatr hazırda H.Sarabski adına Bakı Mədəniyyət Evinin binasısında yerləşir. 70 nəfərə yaxın peşəkar və həvəskar aktyorları, həmçinin uşaq mütəxəssislərini bir səhnəyə toplayan teatrın repertuarındakı səhnə əsərləri əsasən xalq nağılları əsasında yaranıb. Bunlarla yanaşı, uşaqların dövlət atributlarına vətəndaşlıq məhəbbətini özündə əks etdirən bir neçə əsər də səhnələşdirilib. Kollektivin uğuru təkcə balacaların və yeniyetmələrin zövqünü oxşamaq deyil, onlarda vətənpərvərlik duyğularının aşılanması istiqamətində maariflənndirici və tərbiyəedici vasitələrdən istifadəni də əsas məqsədə çevirmək məharətidir.

Teatrı azyaşlı uşaqlara da tanıtmaq və sevdirmək də çox vacibdir. Bu məqsədlə kitabxanada azyaşlı məktəblilər və bağça uşaqları arasında *"Nağıla döndüm bu gün*" adlı müsabiqə keçirilə bilər. Uşaqların iştirakı ilə tamaşa-müsabiqə "Nağıl otağı"nda keçirilir. Otaq müxtəlif dekorlarla və nağıl personajları ilə bəzədilir, uşaqlar səhnəyə uyğun geyinirlər. Qaliblər münsiflər heyəti tərəfindən mükafatlandırılır. Bu kiçik həcmli əsərlərdən biri də Tofiq Ağayev tərəfindən qələmə alınan "Başını itirmə, dovşan" adlı səhnəcikdir.

Səhnəcikdə iştirak edirlər: Bala dovşan, Ana dovşan, Ana ayı, Meymun, Canavar, Tülkü,Tısbağa.

Çəmənlikdə bir ev var. Orada Ana dovşan öz balası ilə yaşayır. Bala dovşanla tısbağa həyətdə oynayır. Birdən top meşəyə tərəf yuvarlanır. Tısbağa topun arxasınca gedir.

*Bala dovşan:* - Ana, olarmı mən də topu axtarmağa gedim?
*Ana dovşan:* - Get, ancaq çalış ki, tülkünün, canavarın əlinə keçməyəsən.
*Bala dovşan:* - Mən bərk getməyi bacarıram. Qaçıb özümü düşməndən qurtararam.
*Ana dovşan:* - Ayaqlarınla öyünmə. Unutma ki, əsas başdır, ağıllı baş. Çalış onu itirməyəsən.
Bala dovşan meşə cığırı ilə gedir. Arada dayanıb baxa-baxa, hanı mənim topum, deyirdi.
*Bala ayı:* - Mən burdayam!
*Bala dovşan:* - Top danışır?! Ola bilməz! Yəqin qulağım səsə düşüb.
*Bala ayı:* - Yox, yox, mən burdayam!
*Bala dovşan: :* - (əyilib quyuya baxaraq). Eh, heç belə də top olar, sən ki, ayı balasısan.
*Bala ayı:* - Yox, mən topam. Mənim adım topdur.
*Bala dovşan:* - Yaxşı, bəs sən quyuda neyləyirsən?
*Bala ayı:* - Mən istədim ki, bu qəşəng gülü daha yaxından görüm?
*Elə bu an kənardan dovşanı görən tülkü onu yemək istəyir. Bala dovşan qaçmağa başlayır. Tülkü bala dovşanının dalınca qaçır və yüyürərək ona çatır.*
*Tülkü:* - Dayan, səni yeyəcəyəm! Bəlkə hələ yemədim, çox balacasan. Kələm, kök ye. Yaxşı, bayaq kimlə danışırdın?
*Bala dovşan:* - Topla.
*Tülkü:* - Topun dili var ki, danışsın?
*Bala dovşan:* - Var, dilidə var, ağzı da var. Mən səni görürəm, səni eşidirəm. Deməli, başımı itirməmişəm.
*Tülkü ayrılıb gedir. Dovşan quyudakı ayını çağırır.*

*Bala dovşan:* - Top, ay top, tülkü qaçıb getdi. Niyə ağlayırsan?
*Bala ayı:* - Mən elə bildim ki, tülkü səni yeyib.
*Bala dovşan:* - Görürsən ki, mən sağ-salamatam, başını uca tut. Əsas başdı.
*Bala ayı:* - Baş?
*Bala dovşan:* - Bəli, əsas başı itirməməkdir.
*Birdən canavar kolların arasından bala dovşana tərəf atıldı. Dovşancığaz qaçsa da, canavar ona çatır.*
*Canavar:* - Salam, bala dovşan. Sən kimdən qaçırsan?
*Bala dovşan:* - Dostumdan.
*Canavar:* - Ay-Ay-ay! Dostu atmaq heç yaxşı deyil.
*Bala dovşan:* - Mən onu heç zaman atmaram.
*Canavar:* - Əhsən! Məni dostunla tanış elə.
*Bala dovşan:* - Qurd lələ, sənin kəlləndə bir şey var?
*Canavar:* - Hə, başa düşdüm. Sənin dostun məni görüb qorxmasın deyə gedim gizlənim.
*Bala ayı:* - Dovşan, sağsanmı?
*Bala dovşan:* - Sağam, sağam. Topcığaz, çıx o quyudan!
*Elə bu vaxt canavarla tülkü gəlir.*
*Tülkü:* - Sən yenə kiminlə danışırsan?
*Bala dovşan:* - Dostumla.
*Canava*r: - Sənin dostun gözəgörünməzdir?
*Bala dovşan:* - Görünür. Yaxşı görünür, quyunun içindədir.
*Tülkü və canavar quyuya baxaraq ayı balasını gördü və oradan çıxmasını istədilər.*
*Bala ayı:* - İstəmirəm, mən burda çiçəklə söhbət edirəm.
*Onlar ayı balasına ətrafda da çiçəklər olduğunu dedilər. Hətta ona gül dəstəsindən çələng verəcəyini dedilər. Nə etdilərsə, ayı*

*balasını razı sala bilmədilər. Elə bu vaxt kolluqların arasından meymunun başı görünür.*

*Meymun:* - Ayı balası, quyudan çıxma.

*Canavar və tülkü qorxudan qaçır. Ayı balası meymunun səsindən tanıyır. Meymun da ayı balasından orada neynədiyini soruşdusa da, eyni cavabı aldı.*

*Meymun:* - Ananın gözləri yolda qalıb. Elə hey donquldanır ki, mənim balam harada qalıb.

Elə bu vaxt tısbağa görünür. O, bala dovşandan topu tapıb, tapmadığını soruşur. Elə bu an ana dovşan gəlir.

*Ana dovşan:* - Mənim balam!

*Bala dovşan:* - Canavar, tülkü! (tez qaçıb meşəyə gedir)

*Ana dovşan:* - Sən hara gedirsən? Mənim yazıq dovşancığazım, başını itirib anasını da tanımır.

*Ayının evi. Ana ayı hanı mənim balam deyərək ağlayırdı. Bu an bala dovşan qaçaraq xəbəri ona çatdırır. Onlar quyuya gəlirlər. Bala dovşan anasını görərək sevinir və onu səsləyir.*

*Ana dovşan:* - Mənim dovşancığazım, sən başını itirmişdin.

*Bala dovşan:* - Ana, mən bir də başımı itirməyəcəyəm. İndi isə gəl gedək ayı balasını tülkü və canavardan xilas edək.

*Hər üçü quyuya tərəf gəlirlər. Elə bu vaxt ayı balası görünür. Onun yaxasında çiçək var. Bala ayı evlərində olduğu üçün sevinir.*

*Ana ayı:* - Dovşancığaz mənim balamı xilas elədi.

Hamı qışqıraraq: - Dovşan başını itirmə.

Gözlənilmədən tısbağa gəlir və tapdığı topu göyə atır.

*Tısbağa:* - Topu da itirmə!

Hamı sevinir. Topun dalınca qaça-qaça meşədən çıxırlar.

Səhnəcikdən sonra kitabxanaçı oxucular arasında "Hərəyə bir bilet alaq" adlı sorğu keçirir.

1. Yaşadığınız məkana yaxın olan teatrların adını yazın.
2. Teatr tamaşasına baxdıqdan sonra hansı hisləri keçirirsiniz?
3. Əgər akryor (aktrisa) olsaydınız hansı əsərin obrazını canlandırmaq istərdiniz?
4. Teatrda nələrə riayyət edirsiniz?
5. Hansı aktyorları tanıyırsınız?
6. Ayrı adda teatr adlarını sadalayın.
7. Teatra baxmaq üçün bələdçiyə nəyi təqdim edirsiniz?
8. Heyvanların iştirak etdikləri kiçikhəcmli əsərlər (təmsillər) ən çox hansı teatrda səhnələşdirilir?
9. Nağıl personajlarından hansılarını tanıyırsınız?
10. Sizcə, nə üçün tülkü çoxbilmiş və kələkbaz olduğu halda heç vaxt uğur qazanmır və sevilmir?
11. Uşaq teatrının sirkdən fərqi nədir?
12. Teatrda gördüyüünüz obrazlara həyatda rast gəlirsinizmi?

Uşaq dünyası bəyaz, şəffafdır. Ona görə də uşaqlar səhnədə sözdən daha çox, hərəkətə, mimika və baxışlara, bir sözlə, teatr dili ilə desək, yaşama fəlsəfəsinə üstünlük verirlər. Bu virtual inam eyni zamanda uşaqların cəmiyyət həyatında baş verən hadisələrə daha tez reaksiya vermələrini ortaya qoyur.

Bu maraqla dolu dünyayın nazını çəkmək isə təkcə bir teatr kollektivinin mənəvi borcuna çevrilməməlidir. Uşaqlar doğrudan da bizim gələcəyimizdirsə, onların qayğısına hər birimizin qalması gərəkdir.

**“Məxmər pərdələr arxasında yaşanan həyat”**

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh., S.Vurğun küç. 88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 10
Çapa imzalanmışdır:28.03.2017
Tirajı:100
Pulsuz